# ƏSRƏ BƏRABƏR GÜNLƏR

## Azərbaycan ordusu Qarabağda zəfər yürüşü ilə şanlı tarix yazır

*"1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş qətnamələrdə Ermənistandan açıq şəkildə tələb olunurdu ki, qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən tam, qeyd-şərtsiz və dərhal çıxarsın. Əfsuslar olsun ki, 27 il ərzində bu qətnamələr icra edilməmişdir. Odur ki, biz erməni qoşunlarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərdən çıxarılmasını istədiyimizi deyəndə mən hüquqi nöqteyi-nəzərdən haqlıyam və dediklərim Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə uyğundur."*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsindən.**



Azərbaycan xalqının yaxın-uzaq tarixindəki şanlı, şərəfli, qürurlu günlər, əlamətdar hadisələr saymaqla bitib tükənən deyil. Lakin 2020-ci ilin 27 sentyabrında, 28 ildən bəri torpaqlarımızı işğal altında saxlayan düşmənin növbəti təxribatına cavab olaraq başlanan ək-hücum zəminində yazılan yeni zəfərlər tarixinin tayı-bərabəri yoxdur. Əslində bu, haqq-ədalətin təntənəsi, illərlə əsrarəngiz Qarabağı işğal edib təbii sərvətlərini talayan, bərəkətli torpaqlarımızın məhsulunu "Made in Artsax" yamağı ilə dünya bazarına çıxaran, təkəri altda yatdığı arabanın kölgəsini özününkü bilən köpək ədası, "parlament" yığnağını qeyrət rəmzimiz Şuşaya köçürmək planı, Cıdır düzündə şıllaq atmağı ilə torpağın əsl sahiblərinə acıq verən dövlət səviyyəsində terrorun, xain separatçılığın köklü çöküşü, ölüm fərmanı deməkdir.

Allahın köməyi, dövlət-xalq birliyi, Ali Baş Komandanın qətiyyəti və müzəffər ordumuzun rəşadəti sayəsində müqəddəs torpaqlarımız azadlığa qovuşur, "məğlub", "qaçqın", "köçkün" kimi ləkəli, xəcalətli adlar üstümüzdən götürülür. Qalibiyyət yürüşümüz Ermənistanın terrorçu hərbi-siyasi hakimiyyətini və Qarabağ separatçılarını öz yerində oturtmaqla yanaşı, beynəlxalq aləmdə kimliyimizi təsdiqləyir, milyonlarla soydaşımızı dədə-baba yurdlarına Böyük Qayıdışa hazırlayır, nəinki özümüzü özümüzə, hətta dost-düşməni də bizlərə tanıtdırır.

Bu münaqişənin nizamlanması məqsədilə yaradılmış ATƏT-in Minsk Qrupu, digər beynəlxalq qurumlar və Qərb dövlətləri seyrçi mövqedə dayanaraq problemə dərindən nüfuz etməyə çalışmır, yalnız arabir şablon bəyanatlar verməklə kifayətlənirdilər. Ərazi bütövlüyümüzü doğru-dürüst tanımayanların ərazi ilə bağlı müşküllərimizi obyektiv həll edəcəkləri böyük bir sual altında idi. Və zaman, proseslər nəticənin proqnozlardan elə də ciddi fərqlənmədiyini göstərdi, sübuta yetirildi ki, dünya gücləri ancaq təcavüzkarı – Ermənistanı bəsləyib, işğala məruz qalan tərəfi – Azərbaycanı isə diplomatik cavablar, protokol qaydaları ilə sakitləşdirib. Məhz belə zəmində BMT-nin erməni hərbi birləşmələrinin qəsbi ərazilərdən çıxarılmasını nəzərdə tutan 4 qətnaməsi əhəmiyyətsiz kağız parçasına çevrilmişdi.

Qarabağ məsələsinin dünya gücləri tərəfindən yalnız dondurulması, daşnak separatçılarının gizli-aşkar dəstəklənməsi deyil, əcaib şəkildə monopoliyaya alınması da hamıya aydındır. Yəni Cənubi Qafqazı təsir altına salmağa çalışanlar sözügedən münaqişəni başqasının, məsələn, Türkiyənin həll edəcəyinə və bununla da regionda nüfuz qazanacağına daim qısqanclıqla yanaşırdılar.

Hələ Birinci Qarabağ savaşı dönəmində - 1994-cü ilin 4-5 mayında imzalanmış Bişkek protokoluna əsasən, 12 maydan etibarən atəşkəs razılaşması qüvvəyə minmişdi. Lakin nə yazıqlar ki, erməni tərəfi heç bir beynəlxalq konvensiya və hüququ normalarına əhəmiyyət vermədiyi kimi, bu sazişi də saya salmırdı. Bu müddət ərzində düşmənin atəşkəsi pozması nəticəsində minlərlə dinc, günahsız insan həyatını itirir, yaralanıb əlil olurdu. Nəinki o zamankı təmas xəttində olan hərbi postlarımız, ordumuzun hərbçiləri, örüş, əkin-biçin sahəsində zəhmət çəkən əliyalın insanlar güllləbaran edilirdi.

Ötən əsrin doxsanıncı illərinin əvvəlində yenicə dövlət müstəqilliyi qazanmış Azərbaycanın iqtisadi zəifliyindən, mütəşəkkil orduya, peşəkar hərbi kadrlara, təkmil texnikaya sahib olmamasından, ən başlıcası isə ölkəmizdəki daxili siyasi çəkişmələrdən, hakimiyyət böhranından bəhrələnən, himayədarları sayəsində ard-arda Qarabağın dağlıq hissəsini və ona bitişik 7 rayonu işğala məruz qoyan düşmən çox təkəbbürlü görünürdü. Küçə nümayişlərindən hakimiyyətin olimpinə dırmaşmağı bacarmış "demokrat" Paşin-



bəslədiyi ümidləri puça çıxdıqdan sonra dünya liderlərinə zəng vurub imdad diləyən, onların zəhləsini tökən xunta rejimi nüfuzlu siyasətçilərin və dövlət xadimlərinin cənab İlham Əliyevə israrlı xahişləri nəticəsində razılaşdırılmış müvəqqəti atəşkəs dövründə də ilan xislətini ortaya qoydu. Cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələri qadağan olunmuş raketlərlə vuruldu. Qədim mədəniyyətlərin beşiyi Gəncəyə iki dəfə xain raket hücumu həyata keçirildi, dinc əhali gecə yatdığı yerdə qanına qəltan edildi. Günün günorta çağı Bərdənin mərkəzinə raket atılması insan itkisi ilə nəticələndi. Goranboy, Yevlax, Mingəcevirin atəşə tutulması ilə mülki infrastruktur külli miqdarda ziyan çəkdi. Ermənilərin mütəmadi mərmi elədiyi Tərtər isə II Dünya savaşındakı Stalinqradla müqayisə oluna bilər və sair. Yəni bu siyahını xeyli uzatmaq mümkündür. Ümumiyyətlə, Vətən müharibəsinin başlandığı gündən oktyabrın 31-dək 91 mülki şəxs öldürülüb, 404 nəfər yaralanıb, 2465 fərdi ev dağıdılıb, 97 çoxmənzilli yaşayış binası yararsız hala salınıb, 455 mülki obyektə zərər dəyib...

Bu, regiona ayaq açdığı anlardan terrora köklənmiş, daim güclülərə yaltaqlanaraq başqasının üstünə qısqırdılan quduz it funksiyalı dığaların son 34 günlük, yəni bugünkü simasıdır. Dünənki yaralarımız – Xocalı, Daşaltı, Kərkicahan faciələri ağrıyıb sızlamaqdadır... Srağagün – ötən əsrin əvvəllərində regionda yaranmış qarışıqlıqdan istifadə edib Bakı, Şamaxı, Quba, Lənkəran, Salyan, Naxçıvan, Zəngəzur, İrəvan, Qarabağ, Şərqi Anadolu və başqa ərazilərdə hansı qətliamları törətdikləri obyektiv tarixçilər tərəfindən araşdırılmaqla yeni nəsillər məlumatlandırılır. Ancaq məsələ ondadır ki, xərçəng xəstəliyi kimi metastaz verərək yayılan erməni faşizmi təkcə bizim yox, bütün bölgənin, dünyanın bəlasına çevrilib. Baxın, Gürcüstanın Cavaxeti bölgəsinə ərazi iddiası, Rusiyanın çörəyini yeyib suyunu içərək forpostuna çevrilməsinə baxmayaraq, “ağa”nın üzünə qayıdıb Qərbə sığınmaq cəhdi, Pentaqon, NATO ilə isti münasibətlər, onları sərhədləri həndəvərinə sürükləməklə İran İslam Respublikasını qıcıqlandırmaq, Türkiyəyə qarşı qondarma “soyqırım” təzminatı, hər yanda baş verən metro partlayışları, qanunsuz silah alveri, pul yumalar, insan orqanları qaçaqmalçılığı içərisindən daşnakların boy

yanın baş nazirliyi dövründə erməni həyasızlığı misli görünməmiş dərəcədə artdı. Özünün “Qarabağ Ermənistandır və nöqtə” sərsəm bəyanatları, terrorçu generallarının Yevlax şəhərini, Mingəçevir su anbarını vurmaq hədələri danışıqları mənasız etdi. Cəbhədə vəziyyətin bilərəkdən gərginləşdirilməsi, mövqelərimizin mütəmadi atəşə tutulması Azərbaycan rəhbərliyinə əks-hücumdan başqa çıxış yolu qoymadı.

Məhz belə döyüşlərdə - 2016-cı ilin Aprel və 2020-ci ilin İyul savaşlarında ordumuz düşmən tapdağında qalan xeyli torpaqlarımızı azad elədi. Amma bütün bunlar işğalçıya dərs olmadı. Onlar 4 günlük müharibələrdə itirdiklərini – Lələtəpəni, Cocuq Mərcanlını, Naxçıvan istiqamətində Günnütü və sair əraziləri guya qaytarmaq, “erməni komandosları” mifinin dağılmasına imkan verməməkdən ötrü növbəti təxribatlara əl atdılar. Və nəticə 27 Sentyabrla sonuclandı...

Azərbaycan təkcə müharibə aparmadı, XXI əsrdə dünyanın ən inkişaf etmiş, qabaqcıl hərbi-sənaye kompleksinə malik dövlətlərinə hərb sənətindən dərs keçdi. Sübut elədi ki, artıq 30 il öncəki zəif, dağınıq, hərc-mərcliyin baş alıb getdiyi məmləkət deyil, güclü, qüdrətli, ictimai-siyasi sabitliyin hökm sürdüyü ölkədir. Türkiyədən alınmış hücum dronlarının tətbiqi düşmənin istehkamlarını dağıdıb texnikasını, canlı qüvvəsini məhv etməklə bərabər, itkilərimizi də xeyli azaltdı. Ordumuzun cəsarətli hücumları sayəsində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 150-dən artıq kənd, onlarla strateji yüksəklik işğaldan azad olundu.

Çoxsaylı ölkələr və BMT münaqişəni qınadı və hər iki tərəfi gərginliyi azaltmağa, danışıqları təxirə salmadan davam etdirməyə çağırdı. Amma, axı rəsmi Bakı onların günü günə sataraq, ermənilər üçün əlverişli status-kvonun ömrünü uzadaraq eləmədiklərini elədi. Türkiyə, Pakistan, Ukrayna, Əfqanıstan, Şimali Kipr ölkəmizin yanında olduqlarını bildirdilər. Rusiyanın vasitəçiliyi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, erməni silahlı qüvvələrinin mülki vətəndaşları hədəfə alan terror aktları nəticəsində yenidən pozuldu, yaralıların və məhbusların mübadiləsi dayandırıldı.

Hadisələr göstərdi ki, biz çox yaramaz, alçaq, murdar düşmənlə həm xeyli müddət qonşu olmuş (daha doğrusu, əksərən humanistliyimiz, bəzi hallarda isə beynəlxalq güclərin təzyiqi ilə ocağımızın başında yer vermişik), həm də indi taleyüklü problemlərin həllində üz-üzə qalmışıq. Möhtərəm Prezidentin buyurduğu kimi, Kremlə



göstərməsi hamını daim narahatlıqda saxlayır.

İndi belə bir qanmaz, axmaq, ləyaqətsiz, sürüşkən qonşu ilə necə yola gedəsən?..

Xatırladaq ki, son 25 ildə dəfələrlə işğalçı Ermənistana, ərazilərin sülh yolu ilə azad edilməsinin qarşılığında Qarabağın dağlıq hissəsində yaşayan ermənilərə yüksək statuslu muxtariyyət vəd olunsa da, xoşməramlı təklifi rədd ediblər. Sentyabrın 27-də düşmənin təhriki ilə başlamağa məcbur olduğumuz savaşın qələbəmizlə sonuclanması isə artıq hər hansı statusun verilməyəcəyini gündəmə gətirmiş oldu. Prezidentin də dəfələrlə qeyd etdiyi kimi, torpaqlarımızın qanla azad edilməsi, sülh qarşılığında vəd olunmuş statusu gündəmdən çıxarıb. Və beləliklə hər hansı muxtariyyət məsələsinə nöqtə qoyulub.

Amma buna rəğmən hələ də ermənilərə hansısa muxtariyyət verilməli olduğunu dilə gətirən, öz övladlarını körpəlikdən bizlərə nifrət ruhunda böyüdən ermənilərə qarşı sevgi göstərməli olduğumuzu (səngərdəki ilə mülki dığa guya ayrı-ayrıdır), bizdən üzr istədikləri, Azərbaycan qanunlarını qəbul etdikləri halda onlara Bakı şəhərində yaşamaq üçün şərait yaratmağımızı, Ermənistandan təzminat istəməyin lazım olmadığını bəyan edən məmurlarımız, deputatlarımız var. Doğrusu, belələrinin kimliyi, həmin fikirləri hansı əsas və məqsədlə səsləndirdiyi heç cür anlaşılmır.

Əvvəla, istər sovet dönəmində, istərsə də ondan əvvəl ölkəmizdə yaşayan ermənilər məhz öz günahları, əsassız ərazi iddiaları səbəbindən aramızda artıq bir neçə dəfə baş vermiş münaqişələrə qədər Azərbaycan qanunlarını, birgəyaşayışı qəbul ediblər, necə deyərlər, "can deyib can eşidiblər". Hətta bizlərə "can" deməsələr də, onlara həmişə "can" eşitdirmişik. Aramızda salınan nifaq isə xarici faktorlarla əlaqələndirilib. Amma açıq gözlə baxsaq, erməni xislətinin heç vaxt dəyişmədiyini görərik. Yəni arada su bulandıran, nifaq salan da məhz erməni tərəfidir. Hətta başqası olsa belə, yenə də kütləvi qırğınlar, soyqırım törədilməsi üçün Azərbaycanda yaşayan və "dinc" adlanan ermənidən istifadə olunub (1905, 1915, 1918-ci illəri yada salaq). Əcaba, səsimizi içimizə salıb susaraq, "başqaları öyrədir, onlarda günah yoxdur, şərait yaradaq yaşasınlar" deməliyik, yoxsa necə? Axı buna bənzər hadisələr, münaqişələr, terror aktları, xəyanətlər dəfələrlə olub. Onların bu olanlardan nəticə çaxarmamasını, barbarlığa, vandallığa davam etmələrini sonsuzadək bağışlamağa və sonda yenə də eyni əzabları yaşamağa məcburuqmu?!



Erməni təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun Qarabağda və ətraf rayonlarda antiterror və sülhə məcburetmə əməliyyatlarına başlamasından 1 aydan çox vaxt keçir. Bu dönəm həm də Ali Baş Komandan cənab İlham Əliyevin beynəlxalq aləmə bir diplomatiya və jurnalistika dərsi keçməsi ilə yadda qaldı. Azərbaycan Prezidentinin nüfuzlu dünya KİV-lərinə - Rusiyanın TASS, Ria Novosti, İnterfaks informasiya agentliklərinə, Türkiyənin "A Haber" televiziya kanalına, Yaponiyanın "Nikkel" qəzetinə, ABŞ-ın "Foks News" telekanalına, Fransanın "Fiqaro" qəzetinə, İtaliyanın Rai-1 televiziyasına, İspaniyanın EFE informasiya agentliyinə, Almaniyanın ARD telekanalına və digər nüfuzlu media qurumlarına dolğun, hərtərəfli müsahibələri Azərbaycan həqiqətlərinin təbliği ilə yanaşı, düşməni hansı qüvvələrin dəstəklədiyini, demokratiya və söz azadlığı maskasında ermənipərəst suallar yağdıran əcnəbi media mənsublarının əsl mahiyyətini aşkarladı. Eyni zamanda, məğlubiyyətə uğrayan rəqibi informasiya müharibəsində də uğursuzluğa düçar etdi.



Sentyabrın 27-dən, yəni Vətən müharibəsi başlayandan sonra 20 gün ərzində Prezident İlham Əliyevin tvitter səhifəsinin izləyiciləri təxminən 400 min artıb. Halbuki müharibədən öncə Azərbaycanda tvitter istifafəçiləri 300 min idi.

Bəli, Vətən Müharibəsi 27-29 illik həsrətə son qoyur. Bu, siyasi mövqeyindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının dövlətə, Ali Baş Komandana, son illərdə xeyli güclənmiş, regionun ən güclü ordularından birinə çevrilmiş müzəffər orduya dəstəyi, əsgər və zabitlərimizin misilsiz qəhrəmanlığı, şəhidpərvərliyi sayəsində mümkün oldu. Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa versin! Vətən öz övladlarından daha böyük qələbələr gözləyir...

**Qurban Cəbrayıl**